**Təsdiq edirəm:**
Biznes mühiti və beynəlxalq
reytinqlər üzrə Komissiyanın sədri,
Azərbaycan Respublikası Baş nazirinin
birinci müavini Yaqub Eyyubov

___ ___________

01.05.2023-cü il

**Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Korporativ idarəetmə, investisiyalar və korporativ sosial məsuliyyət" işçi qrupunun 2023-cü il üzrə Fəaliyyət Planı**

| Sıra №-si | İndikatorlar | Mövcud vəziyyət (son hesabat üzrə) | Metodologiya | Görüləcək tədbirlər | Son icra müddəti | İcraçı qurumlar | Məsul şəxslər |
|---|---|---|---|---|---|---|---|
| *Qlobal Rəqabətlilik Hesabatı* | | | | | | | |
| 1. | **11.05 Sahibkarlıq riskləri** | 13-cü yer, 63,2 bal | Dünya İqtisadi Forumu tərəfindən həyata keçirilən sorğuda "Sizin ölkənizdə insanlar sahibkarlıq riskinə nə dərəcədə meyillidir?" sualına cavab [1 = heç meyilli deyillər; 7 = çox meyillidirlər]. | **Aşağıdakı istiqamətlərdə aidiyyəti qurumlar tərəfindən müvafiq işlərin görülməsi və bu sahədə işçi qrupu tərəfindən onlara zəruri dəstəyin göstərilməsi:** | | | |
| | | | | **1.** Sahibkarlıq risklərinin sığortalanması sahəsində mövcud imkanlar haqqında sahibkarların məlumatlandırılması | 01.12.2023 | Mərkəzi Bank, İqtisadiyyat Nazirliyi (o cümlədən Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA)) | Pənah Bənnayev, Elmar İsayev |
| | | | | **2.** Biznes düşüncə tərzinin inkişaf etdirilməsi və təşviqi ilə bağlı müvafiq tədbirlərin keçirilməsi (təlimlərin təşkili, mediada müzakirələrin aparılması və s.) | 2023-cü ilin III-IV rübləri ərzində | İqtisadiyyat Nazirliyi (o cümlədən KOBİA) | Elmar İsayev |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 2. | **11.07 İnnovativ şirkətlərin inkişafı** | 21-ci yer, 64,1 bal | Dünya İqtisadi Forumu tərəfindən həyata keçirilən sorğuda “Sizin ölkənizdə innovativ fikirləri olan yeni şirkətlər sürətlə inkişaf edirlərmi?” sualına cavab [1 = heç inkişaf etmirlər; 7 = çox sürətlə inkişaf edirlər]. | **1.** İnnovativ ideyaların dəstəklənməsi məqsədilə mövcud və yeni yaradılmış mexanizmlər haqqında sahibkarların məlumatlandırılması və bu barədə mediada məlumatların paylaşılması<br>**2.** İnnovativ təşəbbüslərə əsaslanan layihələrin və startapların inkişafının dəstəklənməsi üzrə tədbirlərin davam etdirilməsi və əhatə dairəsinin genişləndirilməsi (startap şəhadətnamələrinin verilməsi, qrant proqramları, müsabiqələrin təşkili və s.) | Mütəmadi | İqtisadiyyat Nazirliyi (o cümlədən KOBİA), Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi (VXSİDA) | Elmar İsayev, Leyla Hacıyeva |
| 3. | **12.04 Səhmdarların əməkdaşlığı** | 23-cü yer, 61,9 bal | Bu göstərici Dünya İqtisadi Forumu tərəfindən həyata keçirilən sorğuda aşağıdakı 3 sualın orta balı kimi hesablanır:<br>“Sizin ölkənizdə şirkət daxilində insanlar hansı səviyyədə əməkdaşlıq edirlər və fikirlərini bölüşürlər?” [1= heç bir səviyyədə, 7= yüksək səviyyədə];<br>“Sizin ölkənizdə şirkətlər hansı səviyyədə fikir mübadiləsi aparır və innovativ ideyaları bölüşürlər?” [1= heç bir səviyyədə, 7= yüksək səviyyədə];<br>“Sizin ölkənizdə sahibkarlıq subyektləri tədqiqat və inkişaf sahəsində universitetlərlə hansı səviyyədə əməkdaşlıq edirlər?” [1= heç bir səviyyədə, 7= mütəmadi əməkdaşlıq edirlər]. | Özəl sektorda korporativ idarəetmə standartlarının könüllülük prinsipi əsasında tətbiqinin təşviqi və genişləndirilməsi məqsədilə məlumatlandırma və maarifləndirmə tədbirlərinin həyata keçirilməsi, eləcə də təlimlərin təşkil edilməsi | 01.12.2023 | İqtisadiyyat Nazirliyi (o cümlədən KOBİA) | Elmar İsayev |
| 4. | **Müvafiq indikatorlar üzrə sorğuların keçirilməsi və nəticələrin təhlil edilməsi** | | | **1.** Sahibkarlıq subyektlərinin qarşılaşdıqları risklər, onların idarə edilməsi məsələləri (11.05 Sahibkarlıq riskləri) və şirkətlərin innovativ ideyalarının inkişafı ilə bağlı vəziyyətin öyrənilməsi (11.07 İnnovativ şirkətlərin inkişafı) məqsədilə sahibkarlar arasında sorğuların keçirilməsi və nəticələrinin təhlil olunaraq Komissiyaya təqdim olunması | 01.12.2023 | İqtisadiyyat Nazirliyi (o cümlədən KOBİA) | Elmar İsayev |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | **2.** 2022-ci ildə keçirilmiş sorğuların (11.06 İdarəetmənin ötürülməsi istəyi; 11.08 Şirkətlərin dağıdıcı (riskli) ideyalara meyilliliyi; 12.04 Səhmdarların əməkdaşlığı) nəticələrinin təhlil edilməsi, aparılmış təhlillər üzrə zəruri tədbirlərin görülməsi, bu barədə sahibkarların və maraqlı tərəflərin məlumatlandırılması | 01.11.2023 | İqtisadiyyat Nazirliyi (o cümlədən KOBİA) | Elmar İsayev |
| | | | | **3.** Müvafiq fəaliyyət sferası nəzərə alınmaqla özəl sektorla əməkdaşlığın daha da genişləndirilməsi, sahibkar məmnunluğunun artırılmasına istiqamətlənmiş tədbirlərin həyata keçirilməsi | İl ərzində | | Elmar İsayev, Elçin İbrahimov |
| ***İqtisadi Azadlıq İndeksi*** | | | | | | | |
| 5. | **4.2. İnvestisiya azadlığı** | 63-cü yer, 70,0 bal | İndeks xarici investisiyalar üzərində normativ məhdudiyyətləri qiymətləndirir və müəyyənləşdirilmiş məhdudiyyətlərə görə müvafiq ballar maksimum mümkün 100 baldan çıxılır. | **Aşağıdakı istiqamətlərdə aidiyyəti qurumlar tərəfindən müvafiq işlərin görülməsi və bu sahədə işçi qrupu tərəfindən onlara zəruri dəstəyin göstərilməsi:** | | | |
| | | | | İnvestisiyanın milliləşdirilməsi və rekvizisiyası, xarici investorların zərərinin kompensasiya edilməsi və ödənilməsi, xarici investorların götürdükləri mənfəətdən təminatlar, xarici valyuta ilə gəlirlərin və başqa məbləğlərin köçürülməsi ilə bağlı qanunvericiliyin tələbləri barədə sahibkarların məlumatlandırılması | İl ərzində | İqtisadiyyat Nazirliyi (o cümlədən KOBİA), Mərkəzi Bank | Səməd Həsənov, Elmar İsayev |
| ***Qlobal İnnovasiya İndeksi*** | | | | | | | |
| 6. | **1.3.1 Biznesin aparılması üçün şərait** | 21-ci yer, 69,6 bal | Bu göstərici hökumətlərin biznesi idarə etmək üçün sabit siyasət mühitini təmin etmə dərəcəsini müəyyən edir. Dünya İqtisadi Forumu tərəfindən həyata keçirilən sorğuda “Ölkənizdə hökumət biznesin idarə edilməsi üçün sabit siyasət mühitini nə dərəcədə təmin edir?” sualına cavab [1 = ümumiyyətlə təmin etmir; 7 = böyük ölçüdə təmin edir]. | **Aşağıdakı istiqamətlərdə aidiyyəti qurumlar tərəfindən müvafiq işlərin görülməsi və bu sahədə işçi qrupu tərəfindən onlara zəruri dəstəyin göstərilməsi:** | | | |
| | | | | **1.** Biznes mühitinin təkmilləşdirilməsi və dəstəklənməsi sahəsində dövlət tərəfindən həyata keçirilən siyasət barədə məlumatlılığın artırılması istiqamətində müvafiq tədbirlərin (təlimlərin, maarifləndirmə tədbirlərinin və s.) həyata keçirilməsi | 2023-cü ilin III-IV rübləri ərzində | İqtisadiyyat Nazirliyi (KOBİA) | Elmar İsayev, Nicat Eyvazzadə |
| | | | | **2.** Sahibkarların qarşılaşdığı çətinliklərin və onların həlli yollarının müzakirə edilməsi, KOB-ların ehtiyacları və təkliflərinin öyrənilməsi məqsədilə aidiyyəti dövlət qurumlarının və biznes assosiasiyaların nümayəndələrinin iştirakı ilə sahəvi görüşlərin təşkil edilməsi | Mütəmadi | İqtisadiyyat Nazirliyi (o cümlədən KOBİA) | Elmar İsayev |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | **3.** Sahibkarlıq fəaliyyətinin inkişafı üçün tənzimləmə və normativ hüquqi bazanın təkmilləşdirilməsi ilə bağlı təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.12.2023 | İqtisadiyyat Nazirliyi, Ədliyyə Nazirliyi | Rövşən Məcidov, Aytac Rzazadə |
| 7. | **1.3.2 Sahibkarlıq siyasəti və mədəniyyəti** | m/y | Bu göstərici sahibkarlıq siyasəti və sahibkarlıq mədəniyyəti üzrə ekspertlərin orta qavrama ballarını əks etdirir.<br>Müxtəlif sahələr üzrə ekspertlər (məqsədli seçmə, ildə minimum 36 ekspert) öz ölkələrində sahibkarlıq şəraitini bəyanatlar (1= tamamilə yanlış;<br>10 = tamamilə doğru) vasitəsilə qiymətləndirirlər. | **1.** Bu indikator üzrə ölkə barədə məlumatların müvafiq beynəlxalq hesabatda nəzərə alınması üçün tədbirlərin görülməsi | 01.09.2023 | İqtisadiyyat Nazirliyi (o cümlədən KOBİA) | Nicat Eyvazzadə, Elmar İsayev |
| | | | | **2.** Sahibkarlıq mədəniyyətinin və bacarıqlarının inkişaf etdirilməsi məqsədilə müvafiq təlimlərin təşkil edilməsi | Mütəmadi | | Elmar İsayev |
| | | | | **3.** Dövlət Vergi Xidməti tərəfindən təqdim edilən xidmətlərdə rəqəmsallaşmanın genişləndirilməsi, yeni e-xidmətlərin yaradılması, xidmətlərin sayının və keyfiyyətinin artırılması | 01.12.2023 | İqtisadiyyat Nazirliyi (o cümlədən Dövlət Vergi Xidməti) | Maya Əlyarzadə |
| 8. | **3.3.2 Ekoloji performans** | 75-ci yer, 38,6 bal | Ekoloji Fəaliyyətin Effektivliyi İndeksi 180 ölkəni ətraf mühitin vəziyyəti və ekosistemin canlılığı baxımından qiymətləndirir. Bu hesablamalar ölkələrin müəyyən edilmiş ekoloji siyasət hədəflərinə nə dərəcədə yaxın olduqlarını qiymətləndirməyə imkan verir. İndeks üzrə qiymət 0-dan 100-ə qədər dəyişir, 100 ən yaxşı göstərici hesab edilir. | **1.** Ekoloji performans indikatoru üzrə hesabatda yer alan göstəricilərin yaxşılaşdırılması ilə bağlı müəyyən edilən tədbirlərin aidiyyəti dövlət qurumları tərəfindən prioritetləşdirilməsi | 01.12.2023 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, digər aidiyyəti dövlət qurumları | Faiq Mütəllimov |
| | | | | **2.** Ekoloji performans indikatorunda yer alan göstəricilər üzrə statistik məlumat bazasının hazırlanması | 01.07.2023 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Statistika Komitəsi,<br>digər aidiyyəti dövlət qurumları | Faiq Mütəllimov, Qumru Cəfərova |
| | | | | **3.** İqtisadiyyatın bütün sahələrində və ev təsərrüfatlarında enerji səmərəliliyinin artırılması istiqamətində müvafiq tədbirlərin görülməsi | Mütəmadi | Energetika Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi | Asəf Rzayev, Faiq Mütəllimov |
| 9. | **3.3.3 ISO 14001 ətraf mühit sertifikatları** | 83-cü yer, 0,5 bal | ISO 14001 sertifikatı bir təşkilatın ətraf mühit üzrə müvafiq imkanlarını artırmaq üçün istifadə edə biləcəyi ekoloji idarəetmə sisteminin tələblərini müəyyənləşdirir. ISO 14001 dayanıqlığın ətraf mühit üzrə təməlinə fayda verməklə, | **1.** Sahibkarların, idarə, təşkilat və müəssisələrin “ISO 14001 ətraf mühitin idarə edilməsi sistemi” sertifikatının mahiyyəti barədə məlumatlandırılması məqsədilə maarifləndirmə tədbirlərinin davam etdirilməsi | Mütəmadi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi (o cümlədən KOBİA), Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası | Faiq Mütəllimov |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | ətraf mühitlə bağlı məsuliyyətlərin sistemli şəkildə idarə edilməsini hədəfləyən təşkilatlar tərəfindən istifadə olunmaq üçün nəzərdə tutulmuşdur. Təşkilatın ətraf mühitlə bağlı siyasətinə uyğun olaraq, ekoloji idarəetmə sistemi özündə ətraf mühitin mühafizəsinin artırılması, uyğunluq öhdəliklərinin yerinə yetirilməsi və ekoloji məqsədlərə nail olunmasını ehtiva edir. Bu sertifikat, hər hansı ətraf mühit üzrə performans meyarlarını müəyyənləşdirmir. ISO 14001 ətraf mühitin idarə edilməsini sistemli şəkildə təkmilləşdirmək üçün tam və ya qismən istifadə edilə bilər. Buna baxmayaraq, bütün meyarlar təşkilatın ekoloji idarəetmə sistemində nəzərə alınmadıqca və istisnasız olaraq yerinə yetirilmədikcə, ISO 14001 sertifikatının uyğunluq tələbləri qəbul edilə bilməz. | **2.** “ISO 14001 ətraf mühitin idarə edilməsi sistemi” sertifikatını əldə etmiş müəssisələr barədə ictimaiyyət üçün açıq məlumat bazasının yaradılması | 01.08.2023 | İqtisadiyyat Nazirliyi (o cümlədən Azərbaycan Standartlaşdırma İnstitutu), Ekologiya və Təbii Sərvətlər Nazirliyi | Gülbacı Əliyeva, Faiq Mütəllimov |
| | | | | **3.** “ISO 14001 ətraf mühitin idarə edilməsi sistemi” sertifikatını əldə etmiş müəssisələrin stimullaşdırılması istiqamətində təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.07.2023 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi (o cümlədən Azərbaycan Standartlaşdırma İnstitutu) | Faiq Mütəllimov |
| | | | | **4.** Resurs, səmərəli texnologiyalar, su, hava və torpaq təmizləyici qurğular və bu kimi ekoloji malların istehsalı və idxalına iqtisadi stimulların tətbiqi üzrə təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.08.2023 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi | Faiq Mütəllimov |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 10. | **4.2.1 Bazar kapitallaşması (ÜDM-də xüsusi çəkisi)** | m/y | Bazarın kapitallaşması (“bazar dəyəri” kimi tanınır) müvafiq siyahıya alınmış yerli şirkətlərin səhmlərinin dəyərinə əsasən müəyyən edilir. Bu siyahıya investisiya fondları, birləşmiş şirkətlər (müxtəlif təşkilatlar tərəfindən bu cür şirkətlərə investisiya qoyulması), səhmdarların maraqlarını müdafiə edən digər şirkətlər daxil edilə bilər. Məlumatlar son 3 ilin nəticələrinin ortalaması əsasında götürülür. | **1.** Bakı Fond Birjasında (BFB-də) listinqdə olan səhmdar cəmiyyətlərin sayının artırılması və ümumilikdə BFB-nin bazar kapitallaşmasının yüksəldilməsi məqsədilə stimullaşdırıcı və maarifləndirici tədbirlərin həyata keçirilməsi | Mütəmadi | Mərkəzi Bank, İqtisadiyyat Nazirliyi (o cümlədən KOBİA) | Arif Cəlilov, Elmar İsayev |
| | | | | **2.** Kapital bazarında investisiya qiymətli kağızlarının kütləvi təklifinin stimullaşdırılması və özəl sektorun maliyyələşmə imkanlarının artırılması məqsədilə maliyyə stimullarının tətbiq edilməsi | 01.10.2023 | Mərkəzi Bank | Arif Cəlilov |
| | | | | **3.** İnvestorların kapital bazarına çıxış imkanlarının genişləndirilməsi məqsədilə fond birjası vasitəsilə məsafədən elektron ticarətə imkan verən müvafiq infrastrukturun yaradılması | | | |
| | | | | **4.** BFB tərəfindən həyata keçirilən Listinq Məsləhət Proqramı çərçivəsində kapital bazarına maliyyələşmə təşəbbüsü ilə müraciət edən şirkətlərin dəstəklənməsi üçün sertifikatlı təlim proqramlarının təşkili, məlumatlandırıcı bildiriş və bukletlərin göndərilməsi və sosial şəbəkələrdə təbliğat işinin aparılması | İl ərzində | Mərkəzi Bank, İqtisadiyyat Nazirliyi | Arif Cəlilov, Elmar İsayev |
| | | | | **5.** Qiymətli kağızlar bazarında əlverişli vergi mühitinin formalaşdırılması məqsədilə Vergilər Məcəlləsinə müvafiq dəyişikliklərin edilməsi ilə bağlı layihə qüvvəyə mindikdən sonra, həmin dəyişikliklərin ictimaiyyətə, xüsusilə biznes subyektlərinə çatdırılması üzrə müvafiq tədbirlərin görülməsi | Layihə qüvvəyə mindikdən sonrakı rüb ərzində | Mərkəzi Bank, İqtisadiyyat Nazirliyi (o cümlədən Dövlət Vergi Xidməti, KOBİA) | Arif Cəlilov, Maya Əlyarzadə, Elmar İsayev |
| | | | | **6.** Mərkəzi Bank tərəfindən istifadəyə verilmiş “Qiymətli kağızlar emissiyası sistemi” barədə emitentlərin və biznes ictimaiyyətinin ətraflı məlumatlandırılması üzrə kompleks tədbirlərin həyata keçirilməsi | 01.07.2023 | Mərkəzi Bank | Asəf Məmmədov |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | **7.** Regionlarda fəaliyyət göstərən kiçik və orta biznes təmsilçilərinin, o cümlədən biznesə yeni başlayan subyektlərin kapital bazarı vasitəsilə maliyyələşməsinə, mövcud bizneslərinin inkişafına və korporativ idarəetmə standartlarının təşviqinə dəstək göstərilməsi, kapital bazarı və BFB-də listinqin üstünlükləri barədə məlumatlandırılması məqsədilə KOBİA ilə birlikdə investisiya səfərlərinin təşkil edilməsi | 01.12.2023 | Mərkəzi Bank, İqtisadiyyat Nazirliyi (o cümlədən KOBİA) | Arif Cəlilov, Elmar İsayev |
| | | | | **8.** Bazar kapitallaşması indikatoru üzrə ölkə barədə məlumatların müvafiq beynəlxalq təşkilata (World Federation of Exchange) müntəzəm qaydada ötürülməsinin təmin edilməsi | Mütəmadi | Mərkəzi Bank | Arif Cəlilov |
| 11. | **4.2.2 Vençur kapitalı investorları, sövdələşmə-lər**<br><br>**4.2.3 Vençur kapitalı resipiyentləri, sövdələşmə-lər** | m/y | Thomson Reuters şirkəti investisiyanın qoyulduğu yer, investisiya şirkətləri, investor firmaları və vəsaitləri, eləcə də digər məlumatlar əsasında özəl kapital sövdələşmələrinə və hər bir əməliyyata dair məlumatlar təqdim edir. Məlumatlar toplusu ölkələr üzrə korrespondentlərlə keçirilmiş sorğu əsasında yerli investisiya şirkətləri tərəfindən il ərzində aparılmış vençur əməliyyatları əsasında müəyyənləşdirilir. | **1.** Ölkədə innovasiya ekosisteminin inkişafı üçün əlverişli şəraitin yaradılması və startapların inkişafının dəstəklənməsi istiqamətində tədbirlərin həyata keçirilməsi | Mütəmadi | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi), İqtisadiyyat Nazirliyi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi | Leyla Hacıyeva, Amil Vəliyev, Elmar İsayev, Mətanət Musayeva |
| | | | | **2.** Vençur fondunun vəsaitlərinin sahibkarlar və aidiyyəti şəxslər üçün əlçatanlığının genişləndirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi | | | |
| | | | | **3.** Vençur fondları və vençur şirkətlərinin fəaliyyətinin tənzimlənməsi üzrə normativ hüquqi bazanın yaradılması ilə bağlı təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.12.2023 | VXSİDA, Ədliyyə Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | Səmral Əliyev, Aytac Rzazadə, Leyla Hacıyeva |
| | | | | **4.** Mələk investorlar klublarının formalaşdırılması və onların üzvlərinin investisiya risklərinin azaldılması üçün uyğunlaşdırıcı fondların (matching funds) yaradılması istiqamətində müvafiq işlərin görülməsi | Mütəmadi | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi) | Leyla Hacıyeva |
| | | | | **5.** Mələk investor olmaq istəyən şəxslərin bilik və bacarıqlarının artırılması üçün onlara vençur kapitalı üzrə təlimlərin keçirilməsi | | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | **6.** Uğurlu startap layihələrinin təşviq olunması məqsədilə vençur kapital sövdələşmələrinin sayının artırılması | Mütəmadi | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi), İqtisadiyyat Nazirliyi, Mərkəzi Bank | Leyla Hacıyeva, Elmar İsayev |
| 12. | **4.2.4 Alınan veçur kapitalı** | m/y | Bu göstərici vençur kapitalı (VK) investisiyasını qəbul edən firmanın yerləşdiyi yer barədə məlumat və digər təfərrüatlar da daxil olmaqla, hər bir sövdələşmə üzrə özəl kapital sövdələşmələrinin pul dəyərinə dair “Refinitiv” şirkəti tərəfindən təqdim edilən məlumatları əks etdirir. Məlumatlardan çıxarış müvafiq dövr üzrə vençur kapitalı əqdləri üzrə sorğuya əsaslanır və məlumatlar investisiya qoyulmuş yer üzrə toplanır. Bu göstərici ölkədə son üç ilin ortalaması olaraq vençur kapitalı əqdlərinin cari ABŞ dolları (milyardlarla) ilə bildirilmiş dəyərinin alıcılıq qabiliyyəti üzrə ÜDM-ə nisbətini əks etdirir. | **1.** Müxtəlif sahələr üzrə ixtisaslaşmış vençur kapitalı layihələrinin həyata keçirilməsi | 01.12.2023 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi) | Leyla Hacıyeva, Amil Vəliyev |
| | | | | **2.** Bu indikator üzrə ölkə barədə məlumatların müvafiq beynəlxalq hesabatda nəzərə alınması üçün tədbirlərin görülməsi | 01.11.2023 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi), İqtisadiyyat Nazirliyi | Leyla Hacıyeva, Elmar İsayev |
| 13. | **5.2.2 Klasterlərin inkişafı** | 25-ci yer, 60,3 bal | Dünya İqtisadi Forumu tərəfindən həyata keçirilən sorğuda “Ölkənizdə yaxşı inkişaf etmiş və dərin klasterlər (firmaların, təchizatçıların, əlaqədar məhsul və xidmətlərin istehsalçılarının və müəyyən bir sahədə ixtisaslaşmış qurumların coğrafi konsentrasiyası) nə dərəcədə geniş yayılmışdır?” sualına cavab [1 = mövcud deyil; 7 = bir çox sahələrdə geniş yayılmışdır]. | **1.** KOB klasterləri şəbəkəsinin yaradılması və bu sahədə məlumatlandırma ilə əlaqədar zəruri tədbirlərin görülməsi | 01.12.2023 | İqtisadiyyat Nazirliyi, Azərbaycan İnvestisiya Holdinqi | Elmar İsayev, Vahid Məmmədzadə |
| | | | | **2.** Ölkədə klasterləşmə sahələri və mövcud imkanlarla bağlı sahibkarların maarifləndirilməsi | Mütəmadi | İqtisadiyyat Nazirliyi (o cümlədən KOBİA) | Elmar İsayev |
| | | | | **3.** Ölkədə mövcud sənaye parklarına onların prioritet fəaliyyət istiqamətləri üzrə rezidentlərin cəlb olunması məqsədilə sahibkarlarla görüşlərin keçirilməsi və potensial layihələrin araşdırılması işlərinin davam etdirilməsi | | İqtisadiyyat Nazirliyi | Emil Hacıyev |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 14. | **5.3.4 Birbaşa xarici investisiyalar, xalis daxilolmalar** | 61-ci yer, 2,4 bal | Birbaşa xarici investisiya investorun fəaliyyət göstərdiyi ölkədən fərqli bir ölkədə fəaliyyət göstərən müəssisədə davamlı idarəetmə marağı (səsvermə səhmlərinin 10 faiz və ya daha çox hissəsi) əldə etməsi üçün son 3 ildə qoyduğu xalis ortalama investisiya məbləğini əks etdirir. Bu kapital investisiyanın, gəlirlərin təkrar yatırımının, digər uzunmüddətli kapitalın və tədiyə balansında göstərilən digər qısamüddətli kapitalın məcmusunu əhatə edir. Bu sıralama xarici investorlar tərəfindən müvafiq iqtisadiyyata xalis investisiya axınını göstərir və ÜDM-ə bölünür. | **1.** Birbaşa xarici investisiyaların cəlbi, ölkədə saxlanılması və genişləndirilməsi, iqtisadiyyatın prioritet sektorları üzrə dəyər təkliflərinin hazırlanması | 01.12.2023 | İqtisadiyyat Nazirliyi (AZPROMO) | Səməd Həsənov |
| | | | | **2**. Xarici investisiyaların genişləndirilməsi məqsədilə CRM sisteminin quraşdırılması üzrə məlumat və əlaqələr bazasının yaradılması | | | |
| | | | | **3.** Qeyri-neft/qaz sahələrinə maraq göstərən xarici investorlarla işgüzar əlaqələrin qurulması | | | Səməd Həsənov, Elmar İsayev |
| | | | | **4.** Azərbaycanın investisiya imkanlarının təşviqi ilə bağlı tədbirlərin davam etdirilməsi | | | Səməd Həsənov, Elmar İsayev |
| ***Yerli və beynəlxalq qurumlarla əməkdaşlığın gücləndirilməsi*** | | | | | | | |
| 15. | **Bütün aidiyyəti indikatorlar** | - | - | Beynəlxalq reytinqlər üzrə sorğularda iştirak edən şirkətlərlə (rezident və qeyri-rezident) müvafiq sahədə əməkdaşlığın davam etdirilməsi və genişləndirilməsi | İl ərzində | Bütün aidiyyəti qurumlar | İşçi qrupun bütün üzvləri |
| 16. | **Bütün aidiyyəti indikatorlar** | - | - | Hesabatı hazırlayan ekspert və ya qiymətləndirmə qrupu ilə əməkdaşlığın genişləndirilməsi və ölkədəki faktiki göstərici və ya qanunvericilik tələbi barədə dəqiq məlumatların Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Katibliyi ilə razılaşdırılmaqla onlara çatdırılması | | | |
| 17. | **Bütün aidiyyəti indikatorlar** | - | - | Müvafiq beynəlxalq təşkilatlara aidiyyəti üzrə təqdim olunan informasiya və statistik məlumatların daim yenilənməsi istiqamətində işlərin görülməsi | | | |